

Milli azadlıqdan
şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN

23 oktyabr 2025-ci il, cümə axşamı
№ 192 (7019)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

***

Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

# Bakıdan strateji addım




## Ermənistanın regional layihələrdə iştirakına şərait yaradılır

Bax səh. 5

## “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik”

Bax səh. 4

## Tarixdən gələcəyə




Bax səh. 3

## Bakı və Astananı birləşdirən strateji xətt Türk birliyinin simvoluna çevrilir

Bax səh. 2



## “Birlik - 2025” birgə regional hərbi təlimi...

Bax səh. 5

## Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

Mərkəzi Bankın (MB) oktyabrın 22-də qəbul etdiyi qərara əsasən, uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində dəyişməz saxlanılıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində əvvəlki sabit rejimin saxlanılmasını şərtləndirib.

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bildirir ki, inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. 2025-ci ilin sentyabrında 12 aylıq inflyasiya 5,7 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,9 faiz, ödənişli xidmətlər üzrə 5,3 faiz, qeyri-qida məhsulları üzrə isə 2,4 faiz təşkil edib. İllik baza inflyasiya 4,9 faiz olub.

Ötən iclasdan bəri inflyasiya...

Bax səh. 6

## 2019-cu ilin oktyabrı - Əli Kərimli Ramiz Mehdiyevi xilas edə bilmədi

2019-cu ilin payızı idi - bu payız olduqca dinamik və siyasi hadisələrlə zənginliyi ilə seçilirdi. Düşünürük ki, hadisələrə axırdan əvvələ doğru nəzər salsaq, daha açıq kontekst əldə etmək olar. Həmin ilin oktyabrın 23-də Azərbaycan Prezidentinin Adminstrasiyasının rəhbəri Ramiz Mehdiyev tutduğu vəzifədən azad edilmişdi. Bundan cəmisi 4 gün əvvəl, oktyabrın 19-da isə Bakıda redikül müxalifətin “Milli şura” adlanan kəsimi razılaşdırılmamış aksiya keçirməyə cəhd göstərmişdi. Bu aksiya cəhdindən 14 gün əvvəl, oktyabrın 11-də isə Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Ermənistanın faşizm siyasəti yürütməsini və faşizmi dəstəklədiyini rəsmi faktlarla sübut etmişdi. Sitat: “Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən...

Bax səh. 4

## Xarici səyyahların gözü ilə...

İşğaldan azad olunduqdan sonra bu ərazilərimizi görmək istəyən səyyahların sayı gündən-günə artır. Artıq indiyə kimi çoxsaylı məşhur blogger və səyyahlar Qarabağı görmək imkanı qazanıblar. Onlar azad olunan rayonlara səfər edərək orada törədilən erməni vandalizmini öz gözləri ilə görürlər. Bu, həm də misli görünməmiş dağıntılara məruz qalan ərazilərimizin bütün dünyada tanıdılması üçün böyük əhəmiyyətə malikdir.

Belə səfərlər vasitəsilə dünya ictimaiyyətinin diqqətini işğaldan azad olnmuş ərazilərdə törədilən vəhşiliklərə yönəltmək mümkün olur. Səyyahlar həm də Qarabağda aparılan sürətli bərpa və quruculuq işləri ilə tanış olurlar. Xarici qonaqlar həmin ərazilərin işğal zamanı vəziyyəti və işğaldan azad edildikdən sonra aparılan quruculuq işləri ilə tanış olmaqla, ermənilərin hansı xislətə malik olduqlarını görürlər. Səyyahların Qarabağa səfər etməsi bölgənin turizm potensialının da dünya ictimaiyyətinə çatdırılmasında böyük əhəmiyyətə malikdir.

Dünən ETIC (“Extreme Traveler International Congress”) klubuna üzv beynəlxalq səyahətçilərin Qarabağa növbəti səfəri baş tutub. Qrupa 8 ölkədən - ABŞ, Böyük Britaniya...

Bax səh. 8

## Dünya kosmik ailəsinin etibarlı üzvü

Azərbaycanın Kosmik Agentliyi (“Azərkosmos”) qlobal kosmik sənaye cəmiyyətinə inteqrasiyanı dərinləşdirməkdədir. Ölkəmizin kosmik sənayesində dayanıqlı inkişad templəri regional alyansda mövqeyimizin möhkəmlənməsinə səbəb olur. Azərbaycan peykləri hazırda Afrika, Avropa, Mərkəzi Asiyanı əhatə edən geniş bir coğrafiyada telekommunikasiya, yayım və internet xidmətləri təqdim edir. Bu, sürətlə inkişaf edən qlobal kosmos iqtisadiyyatına “Azərkosmos”un innovasiyalar təqdimatında və ixracatında strateji mövqeyini artırır. Nəticədə Azərbaycanın kosmik sənayesinin inkişafı ölkəmizin regionda və qlobal miqyasda liderliyini daha da möhkəmləndirir.

**Kosmos xidmətlərimizdən 50-dən çox ölkə yararlanır**

Azərbaycan Kosmik Agentliyinin (“Azərkosmos”) İdarə Heyətinin sədrinin vəzifələrini müvəqqəti icra edən Dunay Bədirxanov “Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili” adlı tədbirdə bildirib ki, Azərbaycanın kosmosda özünəməxsus orbital mövqeyi formalaşıb. Respublikamız 48 ölkədən biri olaraq özünəməxsus...

Bax səh. 6

# Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



Prezident İlham Əliyev oktyabrın 22-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib. Estoniyanın xarici işlər naziri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, bu məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı. Vaşinqton görüşündəki razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında nəqliyyat bağlantısının açılmasının önəminə toxundu.

Estoniyanın xarici işlər naziri Ermənistanın Qazaxıstandan idxal etdiyi taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə daşınmasına ölkəmiz tərəfindən icazə verilməsinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində mühüm addım olduğunu vurğuladı. Nazir ölkəmizə geniş tərkibdə biznes nümayəndə heyəti ilə gəldiyini və Bakıda biznes-forumun keçirildiyini dedi, bu cür tədbirlərin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Qonaq Estoniyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəklədiyini qeyd edərək, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafındakı müsbət dinamikanın məmnunluq doğurduğunu dedi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə Tirana və Kopenhagendə görüşlərini məmnunluqla xatırladı, ölkəmizlə Avropa İttifaqı arasında enerji, nəqliyyat bağlantıları və digər sahələrdə əməkdaşlıq üçün yeni perspektivlərin açıldığını qeyd etdi.

Qonaq COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə də təbriklərini çatdıraraq, bu tədbirdə beynəlxalq iqlim gündəliyi ilə bağlı ciddi nəticələrin əldə edildiyini vurğuladı. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Yaqub Eyyubov "İstiqlal" ordeni ilə təltif olunub

Prezident İlham Əliyev oktyabrın 22-də Yaqub Eyyubovu qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib. Dövlətimizin başçısı bildirib ki, siz uzun illər müxtəlif məsul vəzifələrdə işləyərkən Azərbaycanın inkişafına öz töhfənizi vermisiniz. Mən bunu yüksək qiymətləndirirəm. "Ulu Öndər Heydər Əliyev sizə həmişə diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində sizi gənc kadr kimi məsul vəzifələrə təyin etmişdi və sizə böyük etimad göstərmişdi. Siz də bu etimadı layiqincə doğrultmusunuz. Məhz buna görə müstəqillik dövründə Ulu Öndər xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə gələndən sonra sizi bir neçə məsul vəzifəyə təyin edərək, bir daha sizə etimad göstərmişdir. Onun Sərəncamı ilə siz böyük vəzifə olan Baş nazirin birinci müavini təyin olunmusunuz və o illərdən bəri bu vəzifədə çalışırsınız".

Prezident İlham Əliyev qeyd edib ki, 22 il ərzində mənim prezidentlik dövrümdə də sizə dəfələrlə etimad göstərmişəm, hər prezident seçkilərindən sonra sizi həmin vəzifəyə yenidən təyin edirdim. Sizin böyük xidmətlərinizi nəzərə alaraq mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm.

# İlham Əliyev Yaponiyanın Baş nazirini təbrik edib

Azərbaycan Prezidenti Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyi münasibətilə Sanae Takaiçiyə təbrik məktubu ünvanlayıb.

Məktubda Azərbaycan-Yaponiya münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verildiyi qeyd olunur. Hazırda iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar mövcudluğu vurğulanır. Bildirilir ki, dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, mövcud potensialdan istifadə edərək ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da genişləndirilməsi yolunda birgə səylər göstəriləcək.

# Yeni yubiley medalı təsis edildi

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı təsis edilib. Prezident İlham Əliyev bununla bağlı müvafiq Qanunu təsdiqləyib. Eyni zamanda, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" və medalın təsviri təsdiq edilib. Bununla bağlı dövlət başçısının imzaladığı Fərmana əsasən, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Konstitusiya Məhkəməsinin sədrinə verilir.

# "Səmavi dinlər" layihəsi Vatikanda təqdim edilib



"Səmavi dinlər" layihəsi əsasında Azərbaycan xalçaçılarının ərsəyə gətirdiyi triptix Vatikanda təqdim edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Roma Papası XIV Leo ilə görüşündə təqdimatı olan bu sənət əsəri iudaizm, xristianlıq və İslam dinlərinə həsr edilib, dərin fəlsəfi düşüncənin, milli sənətkarlıq ruhunun təcəssümüdür.

Hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini - sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

Triptixin həm Vatikanda, həm də dünyanın müxtəlif ölkələrində sərgilənməsi planlaşdırılır. Bu baxımdan əsərin Azərbaycanın multikultural irsinin dünyaya tanıdılması baxımından mədəni-siyasi mənası var. Bu, Azərbaycanın mədəni səsinin qlobal miqyasda eşidilməsini, Azərbaycan xalça sənətinin yalnız estetik deyil, həm də fəlsəfi dəyər daşıdığını göstərir.

# Regional gücdən qlobal tərəfdaşlığa: Azərbaycan-Qazaxıstan əlaqələrinin dinamikası

## Bakı və Astananı birləşdirən strateji xətt Türk birliyinin simvoluna çevrilir

Azərbaycanın xarici siyasət kursunun ən mühüm prioritetlərindən sayılan əməkdaşlıq, əlaqələrin daha da dərinləşdirilməsi kimi amillər son dövrlərdə geniş bir coğrafiyada əsaslı mühit formalaşdırıb. Aparılan siyasətin nəticəsidir ki, bu gün Mərkəzi Asiya və Cənubi Qafqaz vahid iqtisadi-siyasi geostrateji rgion kimi xarakterizə olunur. Bu mənada, rəsmi Bakının 2020-ci ildən sonra yaratdığı yeni siyasi situasiya Mərkəzi Asiya regionu üçün də mühüm yeniliklər yaradıb. Qlobal çağırışlar fonunda Bakı regional əməkdaşlığın yeni modelini təqdim edib - bu model qarşılıqlı etimada, iqtisadi sinerjiyə, ortaq tarixi və mənəvi dəyərlərə əsaslanır. Azərbaycan artıq təkcə Cənubi Qafqazın deyil, real olaraq həm də Mərkəzi Asiya ilə Avropa arasında mühüm körpü rolunu oynayır. Bakı bu gün Mərkəzi Asiya üçün dünyaya açılan qapı statusunu daşıyır.

**Dostluq və qarşılıqlı dəstək...**

Bu kontekstdə Qazaxıstanla əlaqələr xüsusi strateji əhəmiyyətə malikdir. Hər iki ölkə türkdilli dövlətlərin inteqrasiyasına öncüllük edir, siyasi, iqtisadi və humanitar sahələrdə dərin inteqrasiya xətti formalaşdırır. Prezident İlham Əliyevin Qazaxıstana son rəsmi səfəri də məhz bu yeni mərhələnin simvoluna çevrildi. Səfər zamanı nümayiş etdirilən yüksək səviyyəli etimad və səmimiyyət, eləcə də qarşılıqlı hörmət iki ölkə münasibətlərinin dərinliyini bir daha göstərdi. Bu səfər təkcə iki ölkə liderlərinin görüşü deyil, həm də türk dünyasının gələcək birliyinin real siyasi təzahürü kimi dəyərləndirilə bilər. Təsadüfi deyildi ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev mətbuta bəyanatında Azərbaycan Prezidentinin dövlət səfərini ölkələr arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirib: "Qazaxıstanda qardaş Azərbaycanın nailiyyətlərinə ürəkdən sevinirlər. Sizin dövlət səfərinizin ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin 20-ci ildönümündə keçirilməsi rəmzi xarakter daşıyır. Bu illər ərzində dövlətlərimiz ikitərəfli əməkdaşlıqda böyük uğurlar əldə ediblər. Xalqlarımızın dostluğu və qarşılıqlı dəstəyi, ən yüksək səviyyədə intensiv siyasi dialoq və hökumətlərin işi sayəsində çoxplanlı Qazaxıstan-Azərbaycan əməkdaşlığı yüksələn xətlə inkişaf edir, yeni məzmunla zənginləşir. Bugünkü danışıqların nəticələri bunun əyani sübutudur".

**Türk dövlətləri ailəsində strateji tərəfdaşlıq modeli**

Azərbaycan və Qazaxıstan əlaqələri sadəcə iki dövlət arasında diplomatik münasibət, siyasi dialoq deyil - bu münasibətlər türk dünyasında birliyin, müasir inteqrasiya modelinin əsas dayaqlarından biridir. Hər iki ölkə Türk Dövlətləri Təşkilatında (TDT) qarşılıqlı anlayış və koordinasiya ruhunda çıxış edir, təşkilatın beynəlxalq nüfuzunun artmasına töhfə verir. Vurğulandığı kimi, Azərbaycanın 2020-ci ildə qazandığı Zəfərdən sonra regionda yaranan yeni geosiyasi mühit türkdilli dövlətlər üçün də strateji fürsət pəncərəsi açdı - ən əsası isə türkdilli ölkələr müstəvisində vacib sayılan inteqrasiyanı daha da gücləndirdi. Hbəlli olduğu kimi, bum əqam Azərbaycanın xarici siyasət kursunda prioritetlərdən biri kimi müəyyən edilib - Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Türk Dövlətləri Təşkilatı bizim ailəmizdir. Məhz bu yanaşmanın nəticəsidir ki, Qazaxıstanla münasibətlər bu gün artıq "dostluq və qardaşlıqdan" "müttəfiqlik" səviyyəsinə doğru inkişaf edir. Bakı və Astananın bu istiqamətdə birgə fəaliyyəti türk dünyasının ümumi siyasi münasibətlər sistemini gücləndirir, ona əlavə rəngarənglik qatır. İki ölkə arasında yaranan qarşılıqlı etimad modeli bu gün türk coğrafiyasında inteqrasiyanın lokomotivi rolunu oynayır. Qazaxıstan Prezidenti mətbuata bəyanatında bildirib ki, biz beynəlxalq siyasət üzrə bütün aktual məsələlərdə mövqelərin eyniliyini bəyan edirik: "Çoxtərəfli strukturlar çərçivəsində işlərin əlaqələndirilməsinin vacibliyi vurğulandı. Regional və qlobal səviyyələrdə sülhün, təhlükəsizliyin, sabitliyin möhkəmləndirilməsinə qarşılıqlı səylər ifadə olundu".

Prezident İlham Əliyev mətbuata bəyanatında bildirib ki, Hökumətlərarası Komissiyanın iclasının ardınca keçirilən Ali Dövlətlərarası Şuranın ikinci iclası və Hökumətlərarası Komissiya və Ali Dövlətlərarası Şura çərçivəsində əldə olunan nəticələrin hamısı ölkələrimizin və xalqlarımızın, həmçinin qonşularımızın xeyrinədir. Ona görə də bu gün ölkələrimiz arasında fəal qarşılıqlı fəaliyyət həm də çox ciddi geosiyasi əhəmiyyətə malikdir: "Ölkələrimiz ənənəvi olaraq bir-birini, - istər BMT, istərsə də digər təşkilatlar olsun, - beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyir. Bu yaxınlarda Kasım-Jomart Kemeleviç türk dövlətləri Sammiti çərçivəsində bizi ziyarət etdi. Beynəlxalq platformalarda aktiv qarşılıqlı fəaliyyət bizim aramızda olan yaxınlığı bir daha göstərir".

**Prezident İlham Əliyevə göstərilən xüsusi ehtiram...**

Səfərin ən diqqətçəkən məqamlarından biri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin nümayiş etdirdiyi şəxsi ehtiram idi. O, Azərbaycan Prezidentini şəxsən hava limanında qarşıladı və səfərin sonunda özü yola saldı. Bu, protokol qaydalarından kənar, səmimi bir münasibətin, dostluq və hörmətin simvolu idi. Tokayev mətbuat konfransı zamanı iki dəfə İlham Əliyevi "görkəmli lider" adlandırdı. Bu ifadə təsadüfi deyildi - Qazaxıstan lideri bununla həm Azərbaycanın son illərdəki uğurlarına, həm də İlham Əliyevin regional siyasətdə formalaşdırdığı yeni konseptual yanaşmaya yüksək qiymət verdi. Qazaxıstan Prezidenti Ali Dövlətlərarası Şuranın ikinci iclasındakı çıxışında bildirib ki, Qazaxıstan-Azərbaycan münasibətlərinin hazırkı yüksək səviyyəsi, ilk növbədə, Prezident İlham Əliyevin şəxsi töhfəsi sayəsindədir: "Mən Sizin bu məsələyə daimi dəstək və diqqətinizi dərindən, yüksək qiymətləndirirəm. Müasir Azərbaycanın bütün möhtəşəm nailiyyətləri Sizin qurucu, güclü liderliyinizlə ayrılmaz şəkildə bağlıdır".

Mətbuata bəyanatında isə Kasım-Jomart Tokayev Azərbaycan Prezidentini görkəmli dövlət xadimi adlandırıb: "İlham Heydər oğlu Əliyev tarixi miqyasda görkəmli dövlət xadimidir. O, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahələrdə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb".

Beləliklə, səfər zamanı keçirilən təkbətək və geniştərkibli görüşlərdə də bu qarşılıqlı hörmət açıq şəkildə hiss olunub - Tokayev Azərbaycanın Qazaxıstan üçün mühüm tərəfdaş olduğunu vurğuladı, eyni zamanda, iki ölkənin ortaq dəyərlərə söykənən siyasətinin regionda sabitlik və inkişaf üçün mühüm amil olduğunu qeyd etdi. Prezident İlham Əliyev isə çıxışında bildirdi ki, Azərbaycan və Qazaxıstan münasibətləri həm tarixə, həm də gələcəyə hesablanmış bir modeldir. Bu, sırf dövlətlərarası diplomatik münasibət deyil, xalqların qardaşlığına əsaslanan dərin bir strateji bağdır.





Dövlətə dəyər, Liderə ehtiram - Astananın Azərbaycan Prezidentinə yüksək münasibəti...

**Qardaşlıqdan strateji müttəfiqliyə - gələcəyə baxış**

Prezident İlham Əliyevin Qazaxıstana səfəri bir daha göstərdi ki, Azərbaycan və Qazaxıstan münasibətləri artıq formal diplomatik əlaqələr çərçivəsini çoxdan aşaraq yeni məzmun qazanıb. Bu münasibətlər ortaq tarix, dil, mədəniyyət və siyasi dəyərlər üzərində qurulub. Tərəflər təkcə iqtisadi maraqları deyil, həm də türk dünyasının gələcək modelini müəyyənləşdirən strateji vizyonu bölüşürlər. İstər Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə təşəbbüslər, istərsə də ikitərəli münasibətlərdə ortada olan hazırki müsbət mənzərə mədəni-humanitar mübadilələr və gənclər siyasəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Beləliklə, səfərin siyasi mesajı aydındır - Azərbaycan və Qazaxıstan birlikdə və türk dvlətlərinin də yaxından iştirakı ilə həm təhlükəsizliyin, həm əməkdaşlığın, həm də qardaşlığın gələcək geosiyasi arxitekturanı formalaşdırır. Bu, həm regional sabitlik, həm də qlobal enerji təhlükəsizliyi baxımından mühüm strateji amildir. Prezident Tokayevin "görkəmli lider" kimi dəyərləndirdiyi Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan bu gün türk dünyasında həm nüfuz, həm də təşəbbüskarlıq mərkəzinə çevrilib. Qazaxıstanla bu səviyyədə münasibətlərin inkişafı regionun gələcək siyasi xəritəsində yeni, möhkəm bir strateji xəttin əsasını qoyur. Qazaxıstanın dövlət başçısı Ali Dövlətlərarası Şuranın ikinci iclasında bildirib ki, münasibətlərimizə gəldikdə, onların tam şəkildə həyata keçirilməsi üçün böyük potensial var - sarsılmaz etimad, ortaq dəyərlər, xalqlarımızın yaxınlaşmağa səmimi səyləri mövcuddur. Ona görə də əminəm ki, ölkələrimizi böyük gələcək gözləyir.

**Sabitliyin, inkişafın və birliyin əsas dayaqlarından biri kimi...**

Nəticə etibarı ilə, Prezident İlham Əliyevin Qazaxıstana səfəri ikitərəfli münasibətlərin möhkəmlənməsi baxımından olduğu qədər, həm də regional gələcəyin inkişaf istiqamətlərinin müəyyənləşməsi nöqteyi-nəzərindən mühüm tarixi əhəmiyyət daşıyır. Bu səfər, eyni zamanda, Azərbaycanın regional və qlobal siyasətdə artan rolunun növbəti təsdiqi kimi qiymətləndirilməlidir.

Qazaxıstanla strateji əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də mənəvi müstəvidə yeni keyfiyyət mərhələsinə qədəm qoyur. Bakı və Astananın birgə addımları Orta Dəhlizin inkişafı, enerji təhlükəsizliyinin təminatı və türk dövlətləri arasında əlaqələrin dərinləşməsi istiqamətində real nəticələr verir. Səfər zamanı nümayiş etdirilən yüksək səmimiyyət və etimad türk birliyinin gələcəyi üçün mühüm rəmzi mənaya malikdir. Bu münasibətlər artıq sadəcə dövlətlərarası əlaqələr deyil, eyni kökdən gələn xalqların ortaq taleyinə söykənən strateji müttəfiqlik modelidir. Azərbaycan və Qazaxıstanın bu səviyyədə əməkdaşlığı regionda sabitliyin, inkişafın və birliyin əsas dayaqlarından birinə çevrilməkdədir.

*Pərviz SADAYOĞLU*

# Tarixdən gələcəyə

## 5-ci Tbilisi İpək Yolu Forumunda Azərbaycanın regional kommunikasiyaların inkişafında mühüm rolu xüsusi vurğulanıb

*Mübariz ABDULLAYEV*

Hazırkı mürəkkəb geosiyasi və geoiqtisadi reallıqlar fonunda Azərbaycan Avrasiyada mühüm nəqliyyat-logistika hablarından biri qismində çıxış edir. Ölkəmizə üstünlük qazandıran çoxsaylı amillər sadalamaq mümkündür. Burada respublikamızdakı uzunmüddətli möhkəm daxili sabitliyi, cəmiyyətin tolerantlığını, beynəlxalq standartlara uyğun hüquqi bazanın formalaşdırılmasını, tranzit daşımaları baxımından ölkənin əlverişli coğrafi mövqeyini və əlbəttə ki, aparılan məqsədyönlü siyasəti xüsusi qeyd edə bilərik. Azərbaycan davamlı olaraq öz ərazisindən keçən Şimal-Cənub, Şərq-Qərb marşrutlarının, Orta Dəhlizin inkişafına töhfələr verir, ikitərəfli və çoxtərəfli platformalarda yüksək fəallıq göstərməklə iştirakçı dövlətlərlə əməkdaşlıq əlaqələrini genişləndirir. Elə bu günlərdə Azərbaycanın Baş naziri Əli Əsədov Gürcüstanın ev sahibliyi ilə "Bağlantıya sərmayə qoyun - sabitlikdə böyümək" mövzusunda keçirilən







V Tbilisi İpək Yolu Forumuna qatılıb. Baş nazir tədbirdəki çıxışında regional kommunikasiyaların inkişaf prespektivlərindən bəhs etməklə ölkəmizin bu sahədəki roluna diqqət çəkib.

**Tarixi İpək Yolunun bərpasına Azərbaycanın həssas yanaşması**

Forumda bildirildiyi kimi, Tarixi İpək Yolu qitələr arasında ticarət və mədəni əlaqələrin formalaşmasında böyük rol oynayıb. Bu gün Orta Dəhliz həmin marşrutun müasir davamı olaraq Avropa ilə Asiyanı etibarlı və səmərəli əlaqə ilə birləşdirir.

Tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan müstəqilliyinin ilk illərindən bu marşrutun bərpasına həssas yanaşma sərgiləyir. Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının (Aİ) TRASEKA proqramı əsasında "Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib. TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci il fevralın 21-də rəsmi açılışı baş tutub.

Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu" imzalanıb.

Respublikamız Orta Dəhlizin təşviqi məqsədi ilə dəhliz boyu ölkələrlə sıx əməkdaşlıq həyata keçirir. Qeyd edək ki, 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan və Türkiyə arasında "Orta Dəhliz"in inkişafı üzrə 2022?2027-ci illəri əhatə edən Yol Xəritəsi imzalanıb. 2024-cü il iyulun 3-də qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" Orta Dəhlizin inkişafı istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Bu sənəd hər iki ölkənin nəqliyyat və logistika sahəsində əməkdaşlığını dərinləşdirərək Orta Dəhliz üzrə ticarət axınlarının artırılmasına, infrastruktur layihələrinin reallaşdırılmasına və iqtisadi əlaqələrin gücləndirilməsinə şərait yaradır.

**Respublikamızın yaratdığı vacib nəqliyyat infrastrukturu**

Tarixi İpək Yolunun davamı olan Transxəzər marşrutu (Orta Dəhliz) Çin Xalq Respublikasını Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə vasitəsilə Avropa İttifaqı ilə birləşdirən və Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), eləcə də Süveyş Kanalı vasitəsilə dəniz yoluna alternativ olan multimodal nəqliyyat dəhlizidir. Orta Dəhliz əsas etibarilə dəmir yolundan (4256 km) və dənizdən keçən hissədən (508 km) ibarətdir və Çin-Qazaxıstan sərhədindən başlayaraq, Qazaxıstandan keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək davam edir. Gürcüstandan isə bu dəhliz iki istiqamətdə ? Türkiyə vasitəsilə Avropaya, Qara dəniz vasitəsilə isə Ukrayna, Rumıniya və Bolqarıstana uzanır.

Məhz respublikamızın fəallığının, davamlı təşviq siyasətinin nəticəsidir ki, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər dövlətlər Orta Dəhlizin inkişafını hədəfləyən platformalarda birləşiblər. Bu platformalar çərçivəsində uzlaşdırılmış fəaliyyətlər Orta Dəhlizin cəlbediciliyinin artmasına güclü impuls verir. 2023-cü il noyabrın 23-də təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Plan"ı ölkəmizin tranzit potensialından daha səmərəli istifadəyə imkanlar yaradır. Orta Dəhliz üzrə yükdaşımaların artması məqsədilə yüklərin həm dəmir yolları, həm də avtomobil yolları ilə sürətli və səmərəli şəkildə daşınması təmin edilir.

Azərbaycanın Orta Dəhlizin inkişaf etdirilməsinə verdiyi töhfələrdən bəhs edərkən iki layihənin önəmini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn BTQ region ölkələrinin tranzit potensialının artmasına yeni imkanlar yaradıb. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi layihəsi ötən il tamamlanıb. Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Bu liman hazırda dünyada mövcud olan ən yüksək standartlar səviyyəsində inşa olunub. Yeni liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır.

Azərbaycan Transxəzər marşrutunun inkişaf etdirilməsi məqsədilə, həmçinin qonşu dövlətlərlə, o cümlədən də Gürcüstanla sıx əməkdaşlıq şəraitində birgə layihələrin həyata keçirilməsində fəal iştirak edir. Əli Əsədov bildirib ki, bu istiqamətdə səylərimizi birləşdirərək, dəhliz boyunca infrastrukturun genişləndirilməsi, keçid proseslərinin sadələşdirilməsi və tranzit imkanlarının artırılması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atırıq. Baş nazirin sözlərinə görə, liman və logistika mərkəzlərinin modernləşdirilməsi, rəqəmsal həllərin tətbiqi kimi layihələr bu əməkdaşlığın bariz nümunələridir. "Görülən tədbirlər nəticəsində son üç ildə Orta Dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu da onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yük daşımaların tranzit müddəti 15 günə enməklə əhəmiyyətli dərəcədə azalıb", - deyə Əli Əsədov vurğulayıb.

**Yeni layihələrin icrası**

Azərbaycanın Transxəzər marşrutunun perspektiv inkişafı ilə bağlı planları




da böyükdür. Bu məqsədlə həm ölkə ərazisində, həm də qonşu dövlətlərlə əməkdaşlıq şəraitində yeni layihələr həyata keçirilir. Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində yaradılan Ələt Azad İqtisadi Zonası (AFEZ) belə layihələrdən biridir.

AFEZ Azərbaycanın Avropa-Asiya logistika zəncirlərində aparıcı rolunu gücləndirir. Ələt Azad İqtisadi Zonasının yaradılmasında əsas məqsəd yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etmək, innovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu əsasda milli iqtisadiyyatın dayanıqlı inkişafına və ölkədə məşğulluğun artmasına töhfə verməkdir. Ələt Azad İqtisadi Zonası Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təmsilçilərindəndir. Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub. 2023-cü il iyunun 9-da isə dövlətimizin başçısının iştirakı ilə Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılışı baş tutub.

Azərbaycan daim nəqliyyat bağlantılarının şaxələndirilməsi mövqeyindən çıxış edir. Bunun təsdiqi olaraq Prezident İlham Əliyevin təşəbbüsləri və səyləri sayəsində Orta Dəhlizin qolları yaradılır. Transxəzər marşrutunun Bakı-Tbilisi istiqaməti funksionaldır və daşımalar getdikcə artır. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi çərçivəsində Transxəzər marşrutunun yeni qolu olacaq Zəngəzur Dəhlizi (Tramp marşrutu) yaradılacaq. Daha bir istiqamət isə İran ərazisindən keçməklə Naxçıvana uzanan Araz Dəhlizi olacaq. Yeni marşrutun yaradılması ilə əlaqədar 2022-ci il martın 11-də "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanıb. Həmin Anlaşma Memorandumu çərçivəsində 2023-cü il oktyabrın 6-da Zəngilanda avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.

Eyni zamanda, Orta Dəhlizin yeni bir qolu olan Bakı-Naxçıvan-Qars dəmir yolu etibarlı ticarət marşrutu kimi regional əməkdaşlığın dərinləşməsinə və həyat şəraitinin yüksəlməsinə xidmət edəcək. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikası və Türkiyə Respublikası dövlət başçılarının iştirakı ilə keçirilən görüş zamanı Qars-Naxçıvan yeni dəmir yolu xəttinin tikintisinə dair Niyyət Protokolu imzalanıb. Tikilməsi nəzərdə tutulan 224 kilometr uzunluqda dəmir yolu xəttinin Türkiyə tərəfindən 5 il ərzində istifadəyə verilməsi planlaşdırılır. Həmin dəmir yolu xətti həm Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantı, həm də yüklərin Avropaya daşınması istiqamətində tarixi əhəmiyyətli infrastruktur olacaq.

**Tranzit daşımaları üçün vahid tarif tətbiq ediləcək**

Transxəzər marşrutunun inkişafı və cəlbediciliyinin artırılması üçün iştirakçı dövlətlərin fəaliyyətlərinin uzlaşdırılması çox vacibdir. Baş naziriin sözlərinə görə, beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində vahid tarif siyasətinin formalaşdırılması, gömrük və sərhəd prosedurlarının sadələşdirilməsi, multimodal daşımaların təşviqi istiqamətində mühüm addımlar atılır: "Bunun təsdiqi olaraq bu ayın əvvəlində Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolu operatorları Orta Dəhliz üzrə daşımalar üçün vahid uzunmüddətli tarifin tətbiqinə dair razılıq əldə ediblər", - deyə Əli Əsədov bildirib. O qeyd edib ki, tərəflər liman, dəmir yolu və logistika infrastrukturunun təkmilləşdirilməsi, mövcud darboğazların aradan qaldırılması, rəqəmsallaşdırmanın genişləndirilməsi və dəhlizin ötürücülük qabiliyyətinin artırılması üçün birgə addımlar atmağa razılaşıblar. "Əminik ki, birgə səylərimiz regionun nəqliyyat və logistika potensialının tam reallaşdırılmasına, ticarət dövriyyəsinin və investisiya axınının artmasına, habelə Avrasiya məkanında iqtisadi əlaqələrin möhkəmlənməsinə töhfə verəcək", - deyə Baş nazir əlavə edib.

**Yeni marşrut Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək**

Cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında mühüm razılaşmalar əldə olunub. Bu razılaşmaların mühüm müddəalarından biri Zəngəzur Dəhlizinin (Tramp marşrutunun) yaradılmasını və ölkəmizin əsas hissəsi ilə blokada şəraitində olan Naxçıvan arasında maneəsiz bağlantı yaradılmasını əhatə edir. Baş nazir Forumdakı çıxışında Azərbaycanla Ermənistan arasında sülh gündəliyi üzrə əldə edilmiş razılaşmaların regionda davamlı əməkdaşlığın təmin olunması baxımından tarixi əhəmiyyət kəsb etdiyini bildirib. Onun sözlərinə görə, bölgədə kommunikasiyaların açılması, o cümlədən Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşməsi beynəlxalq yükdaşımalar üçün regionun tranzit imkanlarının genişlənməsinə xidmət edəcək.

Baş nazir əminliklə bildirib ki, avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalara əsasən regionda açılacaq yeni marşrut Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək və onun qlobal nəqliyyat şəbəkəsində rolunun artmasına töhfə verəcək. Azərbaycanın regionda əməkdaşlığın və etimad mühitinin bərpasına sadiqliyini diqqətə çatdıran Baş nazir vurğulayıb: "Azərbaycan tərəfi Ermənistan istiqamətində yük tranziti ilə bağlı işğal dövründən qalan bütün məhdudiyyətləri aradan qaldırmaqla bu istiqamətdə mühüm töhfə verib. Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınması bu baxımdan atılmış ilk praktiki addımdır. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bu, sülhün artıq yalnız sənədlərdə deyil, real həyatda da tətbiq olunduğunu göstərir".

# Baş nazir Əli Əsədov Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb



Oktyabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb. Görüş zamanı Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb. İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib. Görüşdə 5-ci Tbilisi İpək Yolu Forumunun əhəmiyyəti vurğulanıb.Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin mehriban qonşuluq və strateji tərəfdaşlıq əsasında hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Baş nazirlər iki ölkə arasında ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, yaşıl enerji, humanitar və digər istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər, müxtəlif sahələrdə həyata keçirilən birgə layihələri nəzərdən keçiriblər.

# “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik”

## Bu mövzuda elmi-praktik konfrans keçirilib

Oktyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən “Konstitusiya və Suverenlik İli”nə həsr edilən “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda parlamentin komitə sədrləri və deputatlar, hökumət nümayəndələri, iqtisadi qurumların rəhbərləri, elmi-tədqiqat institutlarının təmsilçiləri və mütəxəssislər iştirak ediblər. Tədbirdə dövlət suverenliyinin iqtisadi dayaqlarının gücləndirilməsi, milli iqtisadi təhlükəsizliyin təmin olunması və iqtisadi müstəqilliyin möhkəmləndirilməsi yolları müzakirə olunur. Çıxış edənlər Azərbaycanın son illərdə iqtisadi sahədə qazandığı nailiyyətlərdən və gələcək hədəflərdən danışıblar.

### Son 30 ildə Azərbaycanın dövlət büdcəsi 50 dəfə artıb

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi, şanlı Ordumuzun rəşadəti və qəhrəman hərbçilərimizin fədakarlığı sayəsində Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Suverenliyin təmin edilməsi ölkəmizdə yeni reallıqlar yaradıb və bu mərhələdə dövlət suverenliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi əsas strateji prioritetlərdən birinə çevrilib. Bu istiqamətdə həyata keçirilən dövlət siyasəti iqtisadi müstəqilliyi daha da dərinləşdirir və milli maraqlara əsaslanan iqtisadi modelin qurulmasına şərait yaradır.

Azərbaycan bu gün iqtisadi quruculuq sahəsində böyük uğurlar qazanmış, postkonflikt dövründə ən mükəmməl və çevik inkişaf modeli təqdim etmiş ölkələrdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmiz regionda güclü iqtisadi dayaqlara sahib, davamlı və dayanıqlı inkişaf edən dövlətə çevrilib.

A.Əmiraslanov qeyd edib ki, dövlət suverenliyi təkcə ərazi bütövlüyü ilə deyil, həm də daxili və xarici siyasətin müstəqil şəkildə həyata keçirilməsi ilə səciyyələnir. “Azərbaycanın keçdiyi tarixi yol bu baxımdan mühüm nümunədir. Bu gün ölkəmiz qarşısında duran əsas vəzifələrdən biri iqtisadi suverenliyin daha da möhkəmləndirilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması və milli iqtisadiyyatın qlobal çağırışlara uyğun şəkildə inkişaf etdirilməsidir”.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, 2004-2024-cü illərdə Azərbaycan iqtisadiyyatı 3,8 dəfə, qeyri-neft sektoru isə 3,7 dəfə artıb: “2003-cü ildə yoxsulluq səviyyəsi 44,7 faiz, işsizlik səviyyəsi 9,2 faiz təşkil etdiyi halda, həyata keçirilmiş tədbirlər nəticəsində 2024-cü ildə həm yoxsulluq, həm işsizlik səviyyəsi 5,3 faizə enib.

### Son 20 ildə müdafiə xərclərinə 58 milyard manat vəsait yönəldilib

Maliyyə nazirinin müavini Azər Bayramov isə bildirib ki, son illərdə ölkənin maliyyə imkanlarının artması fonunda müdafiə xərclərində də ciddi artım müşahidə olunub. 2005-2025-ci illərdə dövlət büdcəsindən müdafiə xərclərinə 58 milyard manat vəsait yönəldilib. Bu xərclər ordumuzun qüdrətini gücləndirib.

Həmin göstəricilər dövlətimizin təhlükəsizliyə və hərbi potensialın gücləndirilməsinə verdiyi prioritetin bariz ifadəsidir. Ayrılan vəsaitlər Silahlı Qüvvələrin maddi-texniki bazasının müasirləşdirilməsinə, hərbi infrastrukturun qurulmasına və ordu heyətinin sosial təminatının yaxşılaşdırılmasına yönəldilib.

Nazir müavini bildirib ki, maliyyə resurslarının düzgün və strateji istiqamətlər üzrə yönləndirilməsi nəticəsində ölkənin müdafiə sektoru ciddi şəkildə modernləşdirilib. “Bu isə 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı azad etməsi və ərazi bütövlüyünün bərpa olunmasında mühüm rol oynayıb. Dövlətin iqtisadi suverenliyi yalnız daxili maliyyə sabitliyi ilə deyil, həm də təhlükəsizlik sektorunun dayanıqlılığı ilə ölçülür. Müdafiə xərclərinə ardıcıl və məqsədyönlü şəkildə yatırılan investisiyalar bu istiqamətdə atılmış ən önəmli addımlardan biridir”.

A.Bayramov əlavə edib ki, dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərcləri üzrə siyasət bundan sonra da ardıcıl şəkildə davam etdiriləcək və ölkənin hərbi-siyasi gücünün daha da möhkəmləndirilməsinə töhfə verəcək.






### Neft Fondunun investisiya gəlirləri 15 milyard dolları ötüb

Dövlət Neft Fondunun (DNF) icraçı direktorunun müavini Bəhruz Bəhramov qeyd edib ki, son on il ərzində Fondun investisiya fəaliyyəti nəticəsində əldə olunan gəlirlər 15 milyard dollardan artıq olub. Hazırda fondun ümumi aktivləri 70 milyard dolları ötüb. Onun sözlərinə görə, ARDNF-nin vəsaitləri ölkənin ümumi daxili məhsulunun (ÜDM) təxminən 90 faizinə bərabərdir və bu göstərici dövlət borcunun 13 mislini üstələyir. Fondun sabit və davamlı investisiya siyasəti ölkənin maliyyə sabitliyinin qorunmasında mühüm rol oynayır.

B.Bəhramov vurğulayıb ki, 270 milyon ABŞ dolları ilə fəaliyyətə başlayan Dövlət Neft Fondunun aktivləri bu gün 70 milyard ABŞ dollarını keçib və aktivlər ÜDM-in 90 faizindən çoxdur. Bu resurs xarici dövlət borcunu 13 dəfə üstələyir.

### Azərbaycan Orta Dəhlizin əsas hərəkətverici qüvvəsinə çevrilib

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov isə bildirib ki, nəqliyyat və logistika sektoru Azərbaycanın milli iqtisadiyyatında strateji əhəmiyyət kəsb edir və ölkənin iqtisadi suverenliyinin möhkəmləndirilməsində həlledici rola malikdir. Azərbaycanın əlverişli coğrafi mövqeyi regionlararası nəqliyyat əlaqələrinin inkişafında unikal üstünlüklər yaradır. Bu gün Azərbaycan Orta Dəhlizin əsas hərəkətverici qüvvəsinə çevrilib. “Orta Dəhlizin harada başlayıb harada bitməsindən asılı olmayaraq, Azərbaycan onun əsas sütunlarından biridir. Bununla yanaşı, Şimal-Cənub və digər beynəlxalq dəhlizlərə artan maraq ölkəmizin tranzit imkanlarını və beynəlxalq inteqrasiyasını daha da gücləndirir. Nəqliyyat infrastrukturuna yönəlmiş strateji layihələr həm iqtisadi müstəqilliyin dərinləşməsinə, həm də sosial rifahın yaxşılaşmasına xidmət edir. Son illər bu sahədə həyata keçirilən tədbirlər nəticəsində məşğulluq səviyyəsi artıb, orta aylıq əməkhaqqı 13 faizdən çox yüksəlib. Bu da sektorda dayanıqlı inkişafın göstəricisidir”.

Nazir müavini onu da əlavə edib ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və quruculuq işləri yeni nəqliyyat şəbəkələrinin formalaşmasına və iqtisadi suverenliyin daha geniş coğrafiyada tətbiqinə şərait yaradır: “Zəngəzur dəhlizinin yaradılması və ilk növbədə Naxçıvanla birbaşa əlaqələrin qurulması təkcə ölkəmiz üçün deyil, bütün regionun nəqliyyat mənzərəsini dəyişəcək. Bu layihə perspektivdə 15 milyon tonadək yükdaşımaya xidmət göstərə biləcək logistik potensiala malikdir. Hazırda Azərbaycan yalnız tranzit ölkə deyil, eyni zamanda, regional nəqliyyat və logistika siyasətinin formalaşdırılmasında söz sahibi olan bir dövlətdir. Bu mövqe ölkənin iqtisadi suverenliyinin praktik təsdiqidir”.

*Nardar BAYRAMLI*

# 2019-cu ilin oktyabrı - Əli Kərimli Ramiz Mehdiyevi xilas edə bilmədi



2019-cu ilin payızı idi - bu payız olduqca dinamik və siyasi hadisələrlə zənginliyi ilə seçilirdi. Düşünürük ki, hadisələrə axırdan əvvələ doğru nəzər salsaq, daha açıq kontekst əldə etmək olar. Həmin ilin oktyabrın 23-də Azərbaycan Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tutduğu vəzifədən azad edilmişdi. Bundan cəmisi 4 gün əvvəl, oktyabrın 19-da isə Bakıda redikül müxalifətin “Milli şura” adlanan kəsimi razılaşdırılmamış aksiya keçirməyə cəhd göstərmişdi. Bu aksiya cəhdindən 14 gün əvvəl, oktyabrın 11-də isə Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Ermənistanın faşizm siyasəti yürütməsini və faşizmi dəstəklədiyini rəsmi faktlarla sübut etmişdi. Sitat: “Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir”.

Bundan 8 gün əvvəl, yəni oktyabrın 3-də Azərbaycan Prezidenti Rusiyanın Soçi şəhərində keçirilmiş “Valday” Diskussiya Klubunda tarixi çıxış etmişdi. Çıxışdan sitat: “Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistandır bir hissəsidir və nöqtə”. Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Aşqabaddakı erməni faşizminin faktlarla sübut edilməsi, Valdayda səslənən şüar Azərbaycanın öz torpaqlarını azad etmək uğrunda başlatdığı savaşın ilk əmri, ilk qığılcımı idi. Azərbaycan Prezidenti tarixi “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyanatı ilə Ermənistana, onu dəstəkləyənlərə, ona havadarlıq edənlərə, havadarlıq edənlərə xidmət göstərənlərə xüsusi bir mesaj ünvanlamışdı - artıq o tarixi an yetişib!

Şübhəsiz ki, bu mesaj ölkə daxilində də mühüm yenilikləri, islahatları və təmizlənmələri özündə əks etdirirdi. Belə bir tarixi məqamda, Qarabağ uğrunda mübarizəyə start verildiyi anda, hədəfin Şuşa, Xankəndi göstərildiyi halda adını müxalifət qoyan məhdud bir qrupun Bakıda küçələrə çıxaraq qarşıdurma yaratmaq istəyi haradan doğa bilərdi? Ya, onlara xüsusi göstəriş verilmişdi, ya da...



Əli Kərimlinin patronajlığı altında olan “Milli şura”nın keçirdiyi aksiyada səsləndirilən şüarlar da diqqətçəkici idi - onlar bu dəfə hansısa ənənəvi “seçki” və ya “demokratiya” şüarı ilə ortaya çıxmamışdılar. Hədəf itaətsizliyi təşfiq etmək idi. Bəli, Əli Kərimlinin aksiya cəhdindən öncə sosial şəbəkələrdə səsləndirdiyi çağırışlara diqqət yetirsək orada nəzərdə tutduğu qarşıdurmaların “anonsunu” verdiyinin şahidi olardıq. Xalqı itaətsizliyə çağırmağa cəhd göstərən, “Sudan, Əlcəzair təcrübələri”ndən dəm vuran, qarşıdakı mərhələdə qanunu pozacaqlarını və bunun da müqabilində polis tərəfindən saxlanılacaqlarını deyən Ə.Kərimli “cızılan plan üzrə” hərəkət edirdi. Hətta BŞBPİ-nin xəbərdarlığının ardından sosial şəbəkələrdə belə bir çağırışın olunması bir daha ortada çirkin planı olduğunu sübuta yetirirdi. Deməli ki, müxalifətin “düyməsinə” qarşıdakı proseslərə əngəl olmaq üçün basılmışdı.

Və... aksiya cəhdindən cəmisi 4 gün, Valday mesajlarından isə 16 gün sonra Ramiz Mehdiyev işdən azad edildi. Bütün kartlar açılmışdı - əlahəzrət məntiq deyir ki, 19 oktyabrda Bakıda icazəsiz aksiya keçimək istəyi Mehdiyevin 23 oktyabrda vəzifədən uzaqlaşdırılmasını əngəlləməyə hesablanmışdı. Bir daha tarixlərə diqqət yetirək - Bu o vaxt idi ki, Azərbaycan Vətən müharibəsinə hazırlaşırdı. Bu o vaxt idi ki, Prezident İlham Əliyev komandada təmizlənmə prosesini başlatmışdı...

*MƏNSUR*

# Bakıdan strateji addım

## Ermənistanın regional layihələrdə iştirakına şərait yaradılır

### Cənubi Qafqazda əməkdaşlığın iqtisadi xəritəsi yenidən cızılır

Cənubi Qafqazda sülh prosesinin sürətlənməsi və regionun iqtisadi inteqrasiyasına yönələn yeni addımlar Azərbaycan diplomatiyasının ardıcıl və məqsədyönlü siyasətinin nəticəsidir. 2020-ci ildən sonra yaranan reallıqlar artıq tək hərbi üstünlüyün deyil, həm də siyasi uzaqgörənliyin təzahürüdür. Azərbaycan Prezidentinin qətiyyətli sülh təşəbbüsləri bölgədə uzun illərdir davam edən qarşıdurmanı dayandırmaqla yanaşı, qarşılıqlı iqtisadi əlaqlərin yaranmasının, qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoyur.

Ermənistana yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məhz bu yeni reallığın iqtisadi göstəricisidir. Artıq regionda ticarət yolları açılır, sərhədlər yumşalır, qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranır. Hələlik yüklərin Gürcüstan ərazisindən keçməsi keçid mərhələsinin göstəricisidir, lakin bu, gələcəkdə daha birbaşa və davamlı kommunikasiya xətlərinin qurulmasının mümkünlüyünü nümayiş etdirir. Bütün bunlar Azərbaycanın siyasi iradəsi və sülh yönümlü diplomatik fəallığı nəticəsində mümkün olub. Yeri gəlmişkən, Prezident İlham Əliyev Qazaxıstana səfəri çərçivəsində mətbuata bəyanatında bildirib ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb: “Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir”.

### Vaşinqton görüşü: sülhün yeni mərhələsi

Vurğulanmalıdır ki, Azərbaycanla Ermənistan arasında sülh prosesinin intensivləşdiyi son aylarda Vaşinqton görüşü dönüş nöqtəsi kimi dəyərləndirilir. ABŞ-ın paytaxtında iki ölkə arasında sülh sazişi layihəsinin paraflanması region üçün tarixi hadisə olmaqla yanaşı, Azərbaycanın beynəlxalq diplomatiyada oynadığı rolu da bir daha göstərdi. Vaşinqton danışıqları zamanı Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipiallıq və dövlət maraqlarına sadiqlik Cənubi Qafqazda sülh prosesinin uğurla davam etdirilməsini təmin etdi. Məhz bu qətiyyət nəticəsində Ermənistan ilk dəfə real sülh sənədinə yaxınlaşdı və praktiki addımlar atmağa məcbur qaldı. Azərbaycan isə məqsədini açıq şəkildə ortay aqoydu - Bakının məqsədi revanşizm deyil, qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq əsasında sabitliyin qurulmasıdır. Azərbaycanın dövlət başçısının Qazaxıstana dövlət səfəri çərçivəsində mətbuata bəyanatında Prezident Kasım-Jomart Tokayev qeyd edib ki, Prezident İlham Əliyev Prezident Trampın fəal vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh Bəyannaməsinin imzalanması üzrə tarixi missiyanı yerinə yetirib. Tokayev həmçinin zərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında Azərbaycan ilə Ermənistan arasında münaqişənin sülh yolu ilə nizamlanmasına dair Bəyannamənin tarixi əhəmiyyətini ayrıca qeyd edib: “ABŞ Prezidenti Donald Tramp tərəfindən haqlı olaraq qeyd edilib ki, Siz çox güclü mövqeyə malik olmağınıza rəğmən belə bir çox mühüm sənədin imzalanmasına razı oldunuz. Bu, Azərbaycanın və Sizin rəhbərliyinizlə Azərbaycan xalqının xüsusi mövqeyindən və öz potensialına inamından xəbər verir. Sizin göstərdiyiniz qətiyyətli siyasi iradə, strateji baxış mürəkkəb məsələlərin həllində və gələcək nəsillərin taleyi üçün məsuliyyətdə müdrik yanaşmanın parlaq nümunəsidir. Heç şübhəsiz ki, iki dövlət arasında əldə olunmuş razılaşmalar bir növ “suayırıcı” oldu və bütün regionda, zənnimcə, onun hüdudlarından kənarda da əməkdaşlığın yeni üfüqlərini açır”.

Beləliklə, yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması, iqtisadi əlaqələrin bərpa olunması və kommunikasiya xətlərinin açılması sülhün ilk real dividentləridir.

### Regionun iqtisadi coğrafiyasını dəyişdirəcək hadisə...

Bəli, göründüyü kimi, Azərbaycan postmüharibə dövründə sülhü təkcə siyasi sənəd kimi deyil, həm də iqtisadi inkişafın əsas şərti kimi təqdim edir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bölgədə dayanıqlı sabitlik yalnız qarşılıqlı iqtisadi maraqların təmin edilməsi ilə mümkündür. Bu baxımdan, Ermənistanın regional layihələrdə iştirakına şərait yaradılması Bakı tərəfindən atılmış strateji addımdır. Ermənistana yük tranzitinin açılması həm sülh prosesi üçün etimad yaradan amildir, həm də regionun iqtisadi coğrafiyasını dəyişdirəcək hadisədir. Çünki bu qərar göstərir ki, Azərbaycan hərbi meydanda qazandığı qətiyyətli qələbənin davamını sülh və dialoq mərhələsinə daşıyıb - qalib dövlət olaraq qarşı tərəfə humanist və praqmatik münasibət nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycanın yaratdığı bu mühitdə Gürcüstanın tranzit rolu da önəmlidir. Hələlik yüklərin Gürcüstan üzərindən daşınması regionda yeni logistik mərkəzlərin formalaşmasına və üçtərəfli əməkdaşlığın güclənməsinə xidmət edir. Bu isə Cənubi Qafqazda uzunmüddətli iqtisadi inteqrasiyanın başlanğıcıdır.




### Türk əxlaqının və mənəvi məsuliyyətinin nümunəsi...

Regionda yaranan yeni münasibətlər sisteminin arxasında həm də dərin mənəvi dəyərlər dayanır. Azərbaycan və Qazaxıstan kimi türk dövlətlərinin qarşılıqlı hörmət və strateji dəstək əsasında qurduqları münasibətlər bu yeni modelin təməlidir. Türk əxlaqının əsas prinsiplərindən olan mərhəmət, ədalət və sülhə sədaqət bu siyasətin mənəvi dayağını təşkil edir. Azərbaycanın Ermənistanla münasibətlərdə nümayiş etdirdiyi bu yanaşma da məhz türk əxlaqının yüksək təcəssümüdür. Qələbədən sonra intiqam yox, ədalətli sülh təklif etmək, düşməni məğlubdan tərəfdaşa çevirmək cəsarəti bu siyasi fəlsəfənin mahiyyətidir. Bəli, Ermənistan anlamalıdır k, sülh prosesi münasibətlərin tənzimlənməsi ilə yanaşı, bütövlükdə regionun gələcək inkişaf modelinin formalaşdırılması deməkdir. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən bu yeni modeldə qarşılıqlı iqtisadi əlaqələr və sabitlik əsas dayaqlardır.

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Paşinyan Tiflisdə keçirilən V “İpək Yolu” Forumunda çıxışı zamanı qeyd edib ki, Azərbaycanın Ermənistan istiqamətində yük tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırması çox mühüm bəyanatdır. “Bu, son dərəcə vacib addımdır və mən Azərbaycan Prezidentinə bu qərarına görə minnətdarlığımı bildirirəm. Həmçinin bu razılaşmanın əldə edilməsindəki rollarına görə Qazaxıstan prezidentinə və Gürcüstanın baş nazirinə də təşəkkür edirəm,” - deyə Paşinyan bildirib.

Beləliklə, bir daha sübut olunur ki, Azərbaycan diplomatiyası sülhü təkcə diplomatik sənəd kimi deyil, uzunmüddətli inkişafın təməli kimi görür. Məhz bu baxış sayəsində Cənubi Qafqaz artıq toqquşmalar məkanından əməkdaşlıq platformasına çevrilməkdədir. Vaşinqton görüşündən sonra yaranan yeni mühit bunu sübut edir: regionda artıq müharibədən yox, iqtisadi tərəfdaşlıqdan danışılır.

### Sülhün ilk nəticələri: əlaqələr bərpa olunur, yollar açılır, regionda qarşılıqlı maraqlar tarazlaşır

Beləliklə, Azərbaycanın sülh təşəbbüsləri bu gün həm beynəlxalq aləmdə, həm də region daxilində etimad qazanıb. Ermənistan üçün də bu, təcriddən çıxmaq, dünya ilə inteqrasiya imkanlarını genişləndirmək anlamına gəlir. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin səyi və uzaqgörən siyasəti sayəsində Cənubi Qafqazda tarixi dönüş baş verir - sülh diplomatiyası öz real nəticələrini verməkdədir. Bakının nümayiş etdirdiyi konstruktiv mövqe və qətiyyətli liderlik bölgədə sabitliyin əsas təminatına çevrilib. Vaşinqton görüşü ilə başlanan yeni mərhələ artıq praktik müstəviyə keçir - iqtisadi əlaqələr bərpa olunur, ticarət yolları açılır, regionda qarşılıqlı maraqlar tarazlaşır.



Bu, həm sülhün, həm də türk dünyasının dəyərlərinə əsaslanan yeni münasibətlər sisteminin formalaşması deməkdir. Azərbaycan bu prosesi təkcə regional deyil, həm də qlobal sabitliyə töhfə kimi təqdim edir.

*Pərviz SADAYOĞLU*

# “Birlik - 2025” birgə regional hərbi təlimi...







## Azərbaycan Mərkəzi Asiya ölkələri ilə hərbi əməkdaşlığı genişləndirir

*Nardar BAYRAMLI*

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin də rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

**Dost və tərəfdaş ölkələrlə birgə hərbi təlimlər keçirilir**

Məlum olduğu kimi, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. Buna nümunə olaraq, ölkəmizlə qardaş Türkiyənin müxtəlif adlar altında keçirilən təlimlərini, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının “Üç qardaş” hərbi təlimlərini göstərmək olar. Eləcə də, Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə “Eternity” kompüter dəstəkli komanda-qərargah təlimini də qeyd edə bilərik.

Diqqət çəkən məqamlardan biri Azərbaycan hərbçilərinin Mərkəzi Asiya ölkələrinin hərbçiləri ilə birgə təlimləridir. Bu yöndə, yəni beynəlxalq əməkdaşlıq çərçivəsində belə bir hərbi təlim Qazaxıstanda keçirilib. Belə ki, ötən il iyulun 8-dən 17-dək Qazaxıstanın qərbində yerləşən Manqistau vilayətində Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın hərbi qüvvələrinin iştirakı ilə regional beynəlxalq təlimlər baş tutub. Təlimlərə təxminən 4 min hərbi qulluqçu və 700-dək hərbi texnika cəlb olunub.

**Beş ölkənin hərbçiləri bir arada**

Bugünlərdə isə Özbəkistanın Səmərqənd vilayətində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçilərinin iştirakı ilə keçirilən çoxmillətli “Birlik - 2025” birgə regional təlimi keçirilib. Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, ümumilikdə 3 mərhələdən ibarət təlimdə dövlət sərhədinin mühafizəsi və müdafiəsinin gücləndirilməsi, qanunsuz silahlı birləşmələrin axtarışı, lokallaşdırılması və məhv edilməsi üzrə fəaliyyətlər uğurla yerinə yetirilib. Qeyd edək ki, təlimdə əsas diqqət iştirakçı ölkələrin hərbi kontingentləri arasında qarşılıqlı fəaliyyətlərin təşkili üzrə hazırlıqlarının təkmilləşdirilməsinə, birgə əməliyyatların keçirilməsi imkan və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Oktyabrın 20-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov “Birlik-2025” təliminin “Yüksək Səviyyəli Müşahidəçi Günü”ndə iştirak etmək üçün Səmərqəndə səfər edib. Səmərqənd şəhərində general-polkovnik Z.Həsənov özbəkistanlı həmkarı Şuhrat Xalmuxamedov ilə görüşüb. Tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyevin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında mövcud hərbi əməkdaşlıq səviyyəsi yüksək qiymətləndirilib, həmçinin bu əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

**Azərbaycan hərbçiləri peşəkarlıq nümayiş etdiriblər**

Zakir Həsənov “Birlik - 2025” birgə regional təlimində ölkəmizi təmsil edən hərbi qulluqçularla da görüşüb. Keçirilən təlimin ölkələrimiz arasında birgə regional fəaliyyətin effektivliyinə təsirini xüsusi vurğulayan müdafiə naziri təlimdə yüksək peşəkarlıq və bacarıq nümayiş etdirən Azərbaycan Ordusunun komando və PUA heyətlərinin döyüş hazırlığını yüksək qiymətləndirib. General-polkovnik Z.Həsənov bu cür birgə təlimlərin ordularımızın yüksək döyüş qabiliyyətinin göstəricisi olduğunu bildirib. Nazir təlim iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq “Birlik - 2025” birgə regional təliminin yüksək səviyyədə təşkil olunmasından məmnunluğunu ifadə edib.

Bundan əlavə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçilərinin iştirakı ilə Səmərqənd vilayətində təşkil olunan “Birlik - 2025” birgə regional təliminin oktyabrın 21-də “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib. Tədbirdə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Özbəkistanın müdafiə naziri, general-leytenant Şuhrat Xalmuxamedov, eləcə də iştirakçı ölkələrdən olan yüksəksəviyyəli qonaqlar iştirak ediblər. Regional təlimin tapşırıqları və mərhələləri barədə qonaqlara məlumat verildikdən sonra təlim poliqonunda müxtəlif epizodlar praktiki yerinə yetirilib.

Yüksəksəviyyəli qonaqlar birgə komanda məntəqəsinin iş prosesi ilə tanış olublar. Daha sonra Özbəkistanın Müdafiə Nazirliyi nəzdində Müdafiə Sənayesi agentliklərinin istehsalı olan silah və hərbi texnika nümunələrindən ibarət sərgiyə baxış keçirilib.

Azərbaycan və Özbəkistan müdafiə nazirləri, eləcə də digər qonaqlar “Birlik - 2025” birgə regional təliminin bağlanış mərasimində iştirak ediblər. General-polkovnik Z.Həsənov tədbirdə çıxış edərək təlimin yüksək səviyyədə təşkilinə görə özbəkistanlı həmkarına təşəkkürünü bildirib, iştirakçıları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

“Birlik - 2025” birgə regional təliminin gedişatı və iştirakçı ölkələrin hərbi qulluqçularının peşəkarlığı yüksək qiymətləndirilib. Sonda təlimdə fərqlənənlərə mükafatlar təqdim olunub.

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

Mərkəzi Bankın (MB) oktyabrın 22-də qəbul etdiyi qərara əsasən, uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində dəyişməz saxlanılıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində əvvəlki sabit rejimin saxlanılmasını şərtləndirib.

## Qlobal mühit əlverişli, inflyasiya idxalı məhduddur

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bildirir ki, inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. 2025-ci ilin sentyabrında 12 aylıq inflyasiya 5,7 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,9 faiz, ödənişli xidmətlər üzrə 5,3 faiz, qeyri-qida məhsulları üzrə isə 2,4 faiz təşkil edib. İllik baza inflyasiya 4,9 faiz olub.

Ötən iclasdan bəri inflyasiya üzrə risk balansında əhəmiyyətli dəyişiklik müşahidə olunmayıb. Qlobal ticarətdə gedən proseslər əmtəə və maliyyə bazarlarında dalğalanmalara səbəb olmaqda davam edir. Dünya əmtəə, xüsusilə də ərzaq qiymətlərinin davamlı azalması, beynəlxalq daşıma xərclərinin pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşması, ticarət tərəfdaşları arasında həyata keçirilən sərt pul siyasəti və nominal effektiv məzənnənin bahalaşması inflyasiya idxalına azaldıcı təsir göstərib. Belə ki, qlobal iqtisadi aktivliyin zəifləməsi, eləcə də qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırıb. Təhlillərə əsasən, son aylarda xarici amillər üzrə qeyri-müəyyənliklər qalsa da, onların inflyasiyaya artırıcı təsiri əhəmiyyətli olmayıb.

MB bildirir ki, beynəlxalq mühitdə qeyri-müəyyənliklərin hələ də qalması qlobal əmtəə qiymətlərində də dalğalanmalara səbəb olur. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına görə 2025-ci ilin sentyabrında əmtəə qiymətləri indeksi illik 3,3 faiz artıb,  ərzaq və içki qiymətləri indeksi isə 2,6 faiz azalıb. BVF oktyabrda 2025-ci il üzrə qlobal inflyasiya proqnozunu dəyişməz saxlayıb (4,2 faiz), 2026-cı ilə dair proqnozu isə cüzi artırıb (3,7 faiz).




## Valyuta bazarında təklif tələbi üstələyib

Qeyd edilən amillər Azərbaycanı xarici inflyasiya təzyiqlərindən neytrallaşdırır və Mərkəzi Bankın arxayınçılığı da məhz budur. Ona görə də uçot dərəcəsinin sabit saxlanılması konservativ və təmkinli siyasətin nəticəsi hesab edilə bilər. Aparılan dəyərləndirmələr göstərir ki, cari ilin ötən dövründə nağd və qeyri-nağd seqmentlər əhatə olunmaqla, ümumilikdə, valyuta bazarında təklif tələbi üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin azalmaqda davam etməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın fundamentində dayanan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Son 7 ayda mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 1,8 faiz bəndi azalaraq sentyabrda 29 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın əsas amili olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə 2025-ci ilin 9 ayında xarici ticarət balansının müsbət saldosu 1,8 milyard dollar təşkil edib. Pul baratları üzrə də xalis daxilolmaların ötən ilə nəzərən müsbət dinamikası tədiyə balansının cari hesabının profisitli olmasını dəstəkləyir. Mərkəzi Bankın 2025-ci ilin sonuna cari hesabın profisiti üzrə proqnozu cüzi olaraq artırılma istiqamətində dəyişdirilib. 2026-cı ilə isə cari hesabın profisitinə dair proqnoz dəyişməz saxlanılıb.




## Qlobal ərzaq bahalaşması gözlənilmir

Ehtimallara görə, xarici faktorlarda əsas rol oynayan mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq bahalaşması gözlənilmir. Baza ssenarisinə əsasən, illik inflyasiyanın hədəf daxilində olacağı, 2025-ci ilin yekununda 5,7 faiz olacağı gözlənilir. İnflyasiya proqnozunun davamlı olaraq hədəfdə qalması və valyuta bazarında sabitliyin davam etməsi pul siyasətinin yumşaldılması üçün zəmin yaradır. Ancaq bununla yanaşı, qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə davam etdiriləcək. Qiymət indeksində təsiredici amillərdən biri olan daxili faktor inflyasiya ilə mübarizə tədbirlərinin bir hissəsi kimi diqqətdə saxlanılacaq.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar faktiki inflyasiyanın istiqaməti, habelə xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək. Mərkəzi Bank bundan sonra da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə etməyə davam edəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat 2025-ci il dekabr ayının 10-da ictimaiyyətə açıqlanacaq.

***E.CƏFƏRLİ***

# Dünya kosmik ailəsinin etibarlı üzvü




Azərbaycanın Kosmik Agentliyi (“Azərkosmos”) qlobal kosmik sənaye cəmiyyətinə inteqrasiyanı dərinləşdirməkdədir. Ölkəmizin kosmik sənayesində dayanıqlı inkişaf templəri regional alyansda mövqeyimizin möhkəmlənməsinə səbəb olur. Azərbaycan peykləri hazırda Afrika, Avropa, Mərkəzi Asiyanı əhatə edən geniş bir coğrafiyada telekommunikasiya, yayım və internet xidmətləri təqdim edir. Bu, sürətlə inkişaf edən qlobal kosmos iqtisadiyyatına “Azərkosmos”un innovasiyalar təqdimatında və ixracatında strateji mövqeyini artırır. Nəticədə Azərbaycanın kosmik sənayesinin inkişafı ölkəmizin regionda və qlobal miqyasda liderliyini daha da möhkəmləndirir.

**Kosmos xidmətlərimizdən 50-dən çox ölkə yararlanır**

Azərbaycan Kosmik Agentliyinin (“Azərkosmos”) İdarə Heyətinin sədrinin vəzifələrini müvəqqəti icra edən Dunay Bədirxanov “Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili” adlı tədbirdə bildirib ki, Azərbaycanın kosmosda özünəməxsus orbital mövqeyi formalaşıb. Respublikamız 48 ölkədən biri olaraq özünəməxsus kosmik resurs əldə edib, kosmos xidmətlərindən hazırda 50-dən çox ölkə və 200-dən artıq şirkət yararlanır.

D.Bədirxanovun sözlərinə görə, peyk xidmətləri ilə yanaşı, kosmik sahədə intellektual məhsulların ixracına da başlanılıb. 2014-cü ildə orbitə buraxılan “Azersky” peyki ilə ilk dəfə olaraq yerin məsafədən müşahidəsi sahəsində milli imkanlar yaradılıb. Müşahidə xidmətləri vasitəsilə kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, fövqəladə halların idarə olunması, hasilat sənayesi, nəqliyyat və yol infrastrukturunun inkişafı, müdafiə və təhlükəsizlik, turizmin inkişafı, xəritəçəkmə və şəhərsalma, meliorasiya və su təsərrüfatı, dövlət əmlakının idarə olunması və kadastr işləri üzrə innovativ layihələr həyata keçirir.

Bütün bu texnoloji imkan və xidmətlər sayəsində Azərbaycanı beynəlxalq peyk bazarında etibarlı tərəfdaş kimi tanıtmağa nail olub. Ölkəmizin milli kosmik infrastrukturu 46 dərəcə Şərq uzunluğunda orbitə peyk qaldırmağa imkan verir.

**Kosmik məhsulların ixracı artır**




“Azərkosmos” 100-dən çox strateji önəmli kommersiya layihəsi həyata keçirib və öz maliyyə portfelini xidmət satışları hesabına gücləndirib. İlk peykin orbitə buraxılmasından 10 il sonra kosmik qurum 10 milyon dollarlıq biznes portfeli formalaşdırmağa nail olub. Son illərdə kosmik məhsulları ixracının coğrafiyası və  həcmi də genişlənməkdədir. Məsələn, 2025-ci ilin yanvar-avqust aylarında “Azərkosmos” tərəfindən dünyanın 41 ölkəsinə 11,6 milyon dolları dəyərində telekommunikasiya xidməti ixrac edilib. Xidmət ixracından əldə edilən gəlirlər milli kosmik agentliyin ümumi gəlirlərinin 66 faizini təşkil edir. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,1 milyon dollarla Birləşmiş Krallıq, 2,3 milyon dollarla

Lüksemburq, 569,5 min dollarla Nigeriya, 537,9 dollarla Türkiyə, 530,4 min dollarla İsveç qərarlaşıb.

**Çinin kosmik nəhəngi ilə bir platformada**

“Azərkosmos” Çinin qlobal terminal istehsalçısı olan “StarWin” şirkəti ilə əməkdaşlığı artırmaq niyyətindədir. Ötən il sözügedən şirkətlə müqavilə imzalanıb və regionda rabitə xidmətlərinin əhatəsini genişləndirmək üçün əlavə peyk resursu bazası yaradılıb. Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, müştərilərə ənənəvi rabitə infrastrukturu olmayan uzaq bölgələrdə xidmət göstəriləcək ki, həmin xidmətləri “Azconnexus”-StarWin” peyk internet platforması birlikdə təchiz edəcək. Əməkdaşlıq çərçivəsində, həmçinin “Azərkosmos” biznes xətlərini genişləndirməyə çalışaq ki, nəticədə bu layihə təkcə peyk resurslarının satışı ilə deyil, qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması sayəsində də gəlir əldə etməyə imkan verəcək. Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda kosmik texnologiya habına çevrilməsini təmin edəcək. Bu layihələr, həm də Azərbaycan iqtisadiyyatının güclənməsinə, post-neft dövründə milli gəlirlərin strukturunda kosmik sənaye dividentlərinin artmasına səbəb olacaq.

## “Azərkosmos” regionun kosmik sənaye habını formalaşdırır

Beynəlxalq əməkdaşlıq çərçivəsində “Azərkosmos” qlobal peyk operatoru olan “ABS” şirkəti ilə faydalı əlaqələr qurub. Niderlandda keçirilən “IBC 2024” beynəlxalq sərgi-konfransında ABŞ-ın eyniadlı şirkəti ilə imzalanmış sazişə əsasən, milli kosmik şirkətimiz Amerikanın peyk vasitəsilə Nigeriya ərazisində öz müştərilərinə “Pay TV” xidmətini təqdim edəcək. Həmçinin dünyanın ən güclü qlobal peyk operatorlarından biri ilə yaxın tərəfdaşlıq “Azərkosmos”un biznes xətlərini genişləndirməyə, təkcə öz peyk resurslarının satışı ilə deyil, qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması sayəsində də gəlir əldə etməyə imkan verəcək.



**Milli kadrların fəzaya çıxış hazırlığı**

Kosmik Agentlik öz kadr institununu da gücləndirib və milli potensiala güvənilən baza formalaşır. İndiyə qədər kosmosa göndərilmiş peyklərdə yerli mütəxəssislərimiz çox az olduğu üçün bu prosesə xaricdən mühəndislər cəlb olunurdusa, hazırda peyk idarəetmə üzrə yerli mütəxəssislərin hazırlanması “Azərkosmos”un öz idaretmə imkanlarını təmin etməkdədir. Həmin potensiala arxalanaraq “Azersky 2” peyk proqramın idarə olunması milli kadrlar tərəfindən həyata keçiriləcək. Bu innovativ idaretmə modelinin növbəti mərhələsi isə azərbaycanlıların kosmonavtlar ailəsində yer almasıdır. Agentlik rəsmisi qeyd edib ki, gələcəkdə azərbaycanlıların kosmosa çıxması ilə bağlı tədbirlər görüləcək, onların təlimə və beynəlxalq kosmik proqramlara cəlb olunması ilə bağlı addımlar atılacaq.

5 il fəaliyyətdə olacağı təxmin edilən “Azersky-2” peyki ilə 500 km hündürlükdən uzunluğu 400 km-ə, eni isə 5 km-ə qədər fotolar çəkmək mümkündür. Peyk, ayırdetməsi 50sm-dən daha yaxşı təsvirlər əldə etmək üçün elektro-optikal kamera ilə təchiz ediləcək . Peykin məlumat yaddaşı 1 TB müəyyən edilib.Qurğu saniyədə 0.5 GB ölçüdə material ötürə biləcək. Peyk  “OPT-SAT 500” platforması üzərində istehsal ediləcək. Beləliklə, yeni peyk qurğusu Azərbaycanın ən son nəsil peyk parkının yaranmasına və çoxşaxəli və daha dəqiq müşahidələr aparmağa imkan verəcək.

**Kosmik Aparatların İnkişafı Mərkəzi inşa olunacaq**

“Azərkosmos” yaxın gələcəkdə peyklərin istehsalını reallaşdırmağı də hədəfləyir. Bu istiqamətdə ilk addımlar atılıb. Tədqiqat və İnkişaf üzrə kosmos komandası il yarımdır ki, İsraildə “Azersky-2” layihəsi çərçivəsində peykin istehsalı üzrə intensiv təlimlər keçir. “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında imzalanmış müqaviləyə əsasən, “Azersky-2” kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur. Dünyanın ən güclü texnologiya şirkətlərindən olan “Israel Aerospace Industries” şirkəti yeni peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağında Azərbaycanlı mütəxəssislərə köməkliyini göstəməkdədir. “IAI” proqram çərçivəsində “Azersky-2” üzrə iki peyk hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin orbitə çıxarılmasından sonra 2028-ci illdə daha bir “Azersky-2” qurğusu fəzaya buraxılacaq.

Yeni inşa olunacaq peyk istehsalı zavodu və istehsalata cəlb ediləcək işçilər üçün Kosmik Aparatların İnkişafı Mərkəzinin qurulması üzrə dizayn və layihələndirmə işlərinə yekun vurulub. “Azərkosmos” tarixində ilk dəfə törəmə müəssisə - Kosmik Aparatların İstehsalı Mərkəzi - “Spacecraft Development and Production” MMC yaradılıb. MMC kosmik aparatların istehsalı layihələrini daha asan şəkildə həyata keçirməyə imkan yaradacaq.

***E.CƏFƏRLİ***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**

# Gələcəyə yatırılan sərmayə!



## Təhsil proqramlarının uğurlu tətbiqi vacibdir...

Yeni təhsil proqramlarının hazırlanması mövzusu hər zaman vacib və mürəkkəb olub. Hər bir ölkə cəmiyyətin inkişafına uyğun olaraq təhsil sistemini təkmilləşdirməyə çalışır. Təhsil proqramları isə bu inkişafın əsasıdır, çünki onlar tələbələrin əldə edəcəyi bilik və bacarıqları müəyyən edir.

Qeyd edək ki, təhsil proqramlarının hazırlanması yalnız dərsliklərin tərtibi və dərs saatlarının müəyyənləşdirilməsindən ibarət deyil. Bu, həm də cəmiyyətin tələbləri, elmi inkişaflar və texnoloji irəliləyişlərlə sıx əlaqədardır. Təhsil proqramlarının məqsədi tələbələrin elmi biliklərini genişləndirmək, onların düşünmə qabiliyyətini inkişaf etdirmək və cəmiyyətə faydalı vətəndaşlar yetişdirməkdir.

**Təhsil proqramlarının sosial və iqtisadi təsiri**

Təhsil proqramları ölkənin gələcəyinə təsir edən ən mühüm faktorlardan biridir. İqtisadiyyatın inkişafı, yüksək ixtisaslı işçi qüvvəsinin formalaşması, texnoloji yeniliklərə uyğunlaşma bacarığı məhz yaxşı hazırlanmış təhsil proqramlarından asılıdır. Məsələn, bir ölkə informasiya texnologiyaları və innovasiyalar sahəsində qabaqcıl mövqeyə yüksəlmək istəyir. O zaman təhsil proqramları bu sahəni əhatə edən dərslər və fənlər vasitəsilə tələbələrə əsas bacarıqları aşılamalıdır. Əks halda, gələcək nəsil bu sahələrdə geridə qalacaq.

**Tələbələrin tələb və maraqlarına cavab vermək**

Mütəxəssislər qeyd edir ki, təhsil proqramlarının tərtibində tələbələrin maraq və ehtiyaclarını nəzərə almaq çox vacibdir. Bu gün dünyada tələbələr çoxsaylı sahələrdə inkişaf etmək, fərqli bacarıqlar əldə etmək istəyirlər. Yalnız bir peşəyə yönəlmiş, dar və spesifik proqramlar artıq onları qane etmir. Müasir təhsil proqramları, tələbələrə geniş bir dünyagörüşü bəxş etməli, onları tənqidi düşünməyə və müxtəlif sahələrdə inteqrasiya olunmağa həvəsləndirməlidir. Burada layihə yönümlü yanaşmalar, analitik düşüncə və yaradıcı fəaliyyətlər ön planda olmalıdır.

**Yeni texnologiyaların təhsilə inteqrasiyası**

Bu gün yeni texnologiyalar təhsil sistemini köklü şəkildə dəyişdirir. Onlayn dərslər, interaktiv tədris alətləri, süni intellekt və digər texnologi yeniliklər təhsil proqramlarının tərtibində daha çox yer alır. Bu cür alətlərin inteqrasiyası, tədrisin daha effektiv olmasına və tələbələrin müxtəlif öyrənmə ehtiyaclarına cavab verməyə kömək edir. Məsələn, bir şagird dərsə fiziki olaraq qatılmasa da, onlayn platformalar vasitəsilə dərsləri izləyə bilər. Bu, təhsilin bərabərliyini təmin edir, çünki hər bir tələbəyə fərqli öyrənmə metodları ilə yaxınlaşmağa imkan yaradır.

**Təhsil proqramlarının əsas prinsipləri**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, hazırlanacaq təhsil proqramları müəyyən prinsiplər üzərində qurulmalıdır. Onun sözlərinə görə, bu prinsiplər proqramın şəffaf, məqsədyönlü və faydalı olmasını da təmin etməlidir: "Təhsil proqramı, yalnız akademik biliklərlə məhdudlaşmamalı, sosial, mədəni və emosional inkişafı da nəzərə almalıdır. Eyni zamanda, bütün tələbələrə eyni şəraitdə və bərabər imkanlarla təhsil vermək məqsədi güdülməlidir.

Təhsil proqramlarının hazırlanmasında yeniliklik də əsas prinsiplərdən biridir. Belə ki, proqramlar zamanla inkişaf etməli və cəmiyyətin tələblərinə uyğun olaraq yenilənməlidir. Təcrübə əsaslı yanaşma vacibdir. Yəni, təhsil proqramları tələbələrə nəzəri biliklərdən əlavə praktiki bacarıqlar da aşılamalıdır".

**Proqramların tərtibində müəllimlərin rolu**

Ekspert qeyd edib ki, təhsil proqramlarının effektivliyi müəllimlərin bu proqramları necə həyata keçirdiyi ilə birbaşa əlaqəlidir: "Müəllimlər təhsil prosesində bir vasitəçi kimi tələbələrə proqramda nəzərdə tutulan bilikləri ötürməkdən daha çox, onların düşünmə qabiliyyətlərini və yaradıcılıqlarını inkişaf etdirmək kimi bir missiyaya sahibdirlər. Müəllimlərə verilən təlimlər, metodik materiallar və texnologiyaların tətbiqi bu istiqamətdə mühüm rol oynayır".

**İnklüzivlik də vacibdir...**

E.Əfəndinin sözlərinə görə, ən müasir təhsil proqramları inklüziv təhsili də nəzərə almalıdır: "Hər bir şagirdin xüsusi ehtiyacları ola bilər, buna görə də proqramların hazırlanmasında müxtəlif bacarıqlar və ehtiyaclar nəzərə alınmalıdır. İnklüziv təhsil həm fiziki, həm də əqli çətinlikləri olan tələbələr üçün uyğunlaşmış proqramlar yaratmağı tələb edir.

Göründüyü kimi, təhsil proqramlarının hazırlanması yalnız təhsil sisteminin təkmilləşdirilməsi deyil, həm də cəmiyyətin gələcəyinə qoyulmuş bir sərmayədir. Proqramlar təhsilin məqsədini və metodlarını nəzərə alaraq hazırlansa, onlar həm fərdi inkişafı, həm də ümumi sosial-iqtisadi irəliləyişi dəstəkləyəcək. Təhsil proqramlarının uğurla tətbiq olunması isə bütün cəmiyyətin daha inklüziv, bərabər və inkişaf etmiş olmasına gətirib çıxaracaq".

*Yeganə*

# Qəzzaya davamlı sülh nə vaxt gələcək?

Qəzzada atəşkəs çox kövrəkdir. Bölgədə bir neçə günlük fasilədən sonra silahlar yenidən işə salınıb və çoxlu sayda insanın həyatına son qoyulub. Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitindən sonra atəşkəsin ilk dəfə pozulması oktyabrın 19-da baş verib. Həmin gün İsrail qüvvələri Qəzza zolağına zərbələri bərpa edib.




## Tərəflər bir-birini günahlandırır

Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü və siyasi iradəsi, həmçinin beynəlxalq birliyin dəstəyi sayəsində sülh razılaşmasının imzalanması Qəzza bölgəsi və bütün Yaxın Şərq coğrafiyası üçün ümid işığı kimi görünürdü. Qeyd edək ki, atəşkəsin bərpası HƏMAS və İsrail Trampın təklif etdiyi 20 bəndlik sülh planının birinci hissəsini qəbul etdikdən sonra baş tutub. Sənədi Misir Prezidenti Əbdülfəttah əs-Sisi, Qətər əmiri Şeyx Təmim bin Həməd əl Tani, ABŞ Prezidenti Donald Tramp və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

Şarm əl-Şeyx razılaşmasının icrasına sammit başa çatdıqdan dərhal sonra başlanıldı. Yerli əhali atəşkəsin əldə olunmasını bayram kimi qarşıladı. Bölgəyə humanitar yüklərin daxil olmasına şərait yaradıldı, əsirlərin, girovların və cəsədlərin mübadiləsinə başlanıldı. Lakin görünür bunlar davamlı sülhün təmin edilməsi üçün yetərli olmayıb.

"Clash Report"un "X" sosial şəbəkəsindəki hesabında yayımlanan videoda Qəzzanın mərkəzinin güclü zərbələrlə sarsıldığı görünür. Yarıdağılmış binalardan qalxan tüstü buludları ətrafı qaranlığa qərq edib.

Regionda yeni tarixin başlanğıcı kimi dəyərləndirilən Yaxın Şərq Sülh Sammitindən altı gün sonra atəşkəsin pozulmasına görə tərəflər bir-birini günahlandırırlar. İsrailin Baş naziri Binyamin Netanyahu Knessetdə çıxışı zamanı bildirib ki, HƏMAS-ın atəşkəsi pozmasına cavab olaraq Qəzza zolağına 153 ton bomba atılıb. Onun sözlərinə görə, hücum nəticəsində hərəkatın yüksək rütbəli komandirləri də daxil olmaqla onlarla hədəf məhv edilib. "Təəssüf ki, atəşkəs zamanı iki əsgərimiz həlak olub", - deyə Netanyahu qeyd edib.

Təl-Əvivin ittihamlarına HƏMAS-dan cavab özünü çox gözlətməyib. Belə ki, öz növbəsində, HƏMAS atəşkəsi pozmadığını və Qəzza zolağının cənubundakı Rəfah şəhərində baş verən toqquşmalarla əlaqəsinin olmadığını bəyan edib.

Tərəflərin təkzibi fonunda sual yaranır: Əgər İsrail və HƏMAS atəşkəs razılaşmasına sadiq olduqlarını bildirirlərsə, bəs onda silahları kim işə salıb? Ehtimal olunan versiyalar haçalanır. Atəşkəs rejiminin bölgədə qarşıdurmanın uzanmasında maraqlı olan üçüncü qüvvələr tərəfindən pozulması ehtimalı böyükdür. Məlumdur ki, bəzi qüvvələr Qəzzada və bütövlükdə Yaxın Şərqdə öz maraqlarını proksi qurumların vasitəçiliyi ilə təmin etməyə çalışırlar. Həmin qüvvələr müharibə səhnəsində görünməsələr də, proseslərin idarə olunmasına öz təsirlərini bu və ya digər formada göstərirlər.

## Dünyadan gələn reaksiyalar

Yaxın Şərq Sülh Sammitindən az sonra Qəzzanın yenidən qan gölünə çevrilməsinə dünya dövlətləri də biganə qalmayıblar. Qətər əmiri Təmim bin Həməd əl-Tani İsraili HƏMAS-ın mövqelərinə silsilə zərbələrdən sonra Qəzza zolağında atəşkəsi pozmaqda ittiham edib.

Bu barədə "Əl-Ərəbiyyə" məlumat yayıb. "Biz İsrailin Fələstində yol verdiyi bütün pozuntuları, xüsusilə Qəzza zolağının insan həyatı üçün yararsız əraziyə çevrilməsini və atəşkəs rejiminin davamlı surətdə pozulmasını bir daha pisləyirik", - deyə əmir bildirib.

Regionda sülhün bərqərar olması təşəbbüsünü irəli sürən və Misirdə Yaxın Şərq Sülh Sammitinin keçirilməsinə nail olan ABŞ Prezidenti Donald Tramp da əmindir ki, Qəzza zolağında atəşkəs rejiminin pozulması HƏMAS-ın rəhbərliyi tərəfindən sanksiyalaşdırılmayıb. Bu barədə o, Ağ Evdə Avstraliyanın Baş naziri Entoni Albanese ilə görüşü zamanı Qəzza zolağındakı vəziyyəti jurnalistlərə şərh edərkən deyib. "Mən inanmıram ki, bunu HƏMAS-ın rəhbərliyi edib", - deyə ABŞ lideri bildirib.

Eyni zamanda, Tramp vurğulayıb ki, əgər vəziyyət gərginləşərsə, ABŞ HƏMAS-a qarşı qətiyyətli güc tətbiq etməyə hazırdır. Bu xüsusda fikirlərini ifadə edən D.Tramp "HƏMAS ilə bağlı vəziyyətimiz nisbətən kiçikdir. Əgər onlar özlərini düzəltməsələr, bu, çox tez həll olunacaq", - deyə vurğulayıb.

D.Trampın başqa bir açıqlaması da diqqət çəkir. O, "Truth Social" hesabında bildirib ki, Yaxın Şərqdə bir sıra ölkələr Qəzzaya hərbi qüvvə göndərməyə hazır olduqlarını bəyan edib. "HAMAS-ın bizimlə razılaşmanı pozaraq pis hərəkətlərinə davam edəcəyi təqdirdə, bizim Yaxın Şərqdə və onun ətrafındakı əla müttəfiqlərimizin bir çoxu açıq-aşkar və qətiyyətli şəkildə, böyük həvəslə Qəzzaya hərbi qüvvə göndərmək fürsətini dəyərləndirərək mənim təklifimlə "bizim HAMAS-ımızı düzəltməyə" hazır olduqlarını mənə bildiriblər. Mən bu ölkələrə və İsrailə "hələ yox" cavabı verdim. Hələ də ümid var ki, HAMAS doğru olanı edəcək. Əgər etməsələr, onların sonu sürətli, şiddətli və qəddar olacaq", - deyə Tramp xəbərdarlıq edib.





## Türkiyə qüvvələri Qəzzada olacaqmı?

ABŞ administrasiyası Qəzza zolağında beynəlxalq sabitləşdirmə qüvvələrinin tərkibini İsrailə məcburən qəbul etdirməyəcək, lakin Türkiyənin bu missiyada iştirakının konstruktiv olacağına inanır.

Bunu ABŞ-ın vitse-prezidenti J.D.Vens İsraildə keçirdiyi mətbuat konfransında deyib: "Biz İsrail dostlarımıza onların ərazisindəki xarici qoşunlarla bağlı heç bir şey təlqin etməyəcəyik, lakin inanırıq ki, türklər konstruktiv rol oynaya bilər və açığını desəm, onlar artıq çox konstruktiv rol oynayıblar. Buna görə onlara çox minnətdarıq".

Vens, həmçinin bütün tərəfləri keçmiş münaqişə və onun müxtəlif ölkələr arasında yaratdığı parçalanmalara deyil, Fələstin anklavının gələcəyinə diqqət yetirməyə çağırıb.

İsrailin türk hərbiçilərinin beynəlxalq sabitləşdirmə qüvvələrinin tərkibində yer almalarına razılıq verəcəyini təsdiqləmək mümkün deyil. Təl-Əviv buna etirazını gizlətmir.Yeri gəlmişkən, bir qədər bundan əvvəl "Hürriyyət" qəzeti Baş nazir Benyamin Netanyahunun Qəzzada sülh razılaşmasını pozmaq planı hazırladığına dair yazı dərc edib. Nəşr, həmçinin bildirib ki, İsrail tərəfi türk hərbçilərinin beynəlxalq sabitləşdirmə qüvvələrində yer almamasında israr edəcək.

Beləliklə, Qəzzada vəziyyət ağır olaraq qalmaqdadır. İzlənilən proseslər onu deməyə əsas verir ki, regionda davamlı sülhü qısa müddətdə və asanlıqla təmin etmək mümkün olmayacaq. Bundan ötrü beynəlxalq birlik daha qətiyyətli səy göstərməlidir.

*Mübariz FEYİZLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Xarici səyyahların gözü ilə...

## Azad ərazilərə növbəti səfər baş tutub

İşğaldan azad olunduqdan sonra bu ərazilərimizi görmək istəyən səyyahların sayı gündən-günə artır. Artıq indiyə kimi çoxsaylı məşhur blogger və səyyahlar Qarabağı görmək imkanı qazanıblar. Onlar azad olunan rayonlara səfər edərək orada törədilən erməni vandalizmini öz gözləri ilə görürlər. Bu, həm də misli görünməmiş dağıntılara məruz qalan ərazilərimizin bütün dünyada tanıdılması üçün böyük əhəmiyyətə malikdir.

Belə səfərlər vasitəsilə dünya ictimaiyyətininin diqqətini işğaldan azad olnmuş ərazilərdə törədilən vəhşiliklərə yönəltmək mümkün olur. Səyyahlar həm də Qarabağda aparılan sürətli bərpa və quruculuq işləri ilə tanış olurlar. Xarici qonaqlar həmin ərazilərin işğal zamanı vəziyyəti və işğaldan azad edildikdən sonra aparılan quruculuq işləri ilə tanış olmaqla, ermənilərin hansı xislətə malik olduqlarını görürlər. Səyyahların Qarabağa səfər etməsi bölgənin turizm potensialının da dünya ictimaiyyətinə çatdırılmasında böyük əhəmiyyətə malikdir.

Dünən ETIC ("Extreme Traveler International Congress") klubuna üzv beynəlxalq səyahətçilərin Qarabağa növbəti səfəri baş tutub. Qrupa 8 ölkədən - ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Avstriya, İsveç, İrlandiya və Portuqaliyadan olan səyahətçilər daxildir.

Heyət 2 gün ərzində avtomobil yolu ilə Ağdam-Xankəndi-Laçın-Şuşa-Füzuli xətti üzrə hərəkət etməyi planlaşdırır. Səfərdə məqsəd işğaldan azad edilmiş ərazilərin populyarlaşdırılması, aparılan genişmiqyaslı tikinti və bərpa işlərinin gedişi ilə tanış olmaqdır.





### 15-ci səfər...

İşğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, nəhəng quruculuq-bərpa işlərinin nümayişi üçün dünyanın əsas beynəlxalq səyahətçilər klublarının xətti ilə 2021-2025-ci illərdə Qarabağ və Şərqi Zəngəzura 14 dəfə beynəlxalq səyahətçilərin səfərləri təşkil edilib. Bu, eyni qəbildən olan sayca 15-ci səfərdir.

8 ölkədən - ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Avstriya, İsveç, İrlandiya, Portuqaliyadan gələn heyətdə MTP (Most Traveled People) beynəlxalq səyahətçilər şəbəkəsinin təsisçisi Charles Veley (ABŞ) də təmsil olunan qonaqlar Ağdam şəhərində avtomobil turundan sonra Ağdam Cümə məscidində olublar.

Qonaqlara Prezidentin xüsusi nümayəndəsinin əməkdaşı məscid haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, dini abidə Ermənistan ordusu tərəfindən işğal dövründə dağıdılıb, qarət edilib. Həmçinin binanın içərisində donuz saxlanılıb. Şəhər işğaldan azad edildikdən sonra burada əsaslı restovrasiya işləri aparılaraq yenidən istifadəyə verilib.

Daha sonra səyyahlar Ağdam Çörək muzeyinin qalıqlarını ziyarət ediblər. Onlara muzey barədə məlumat verilib. Bildirilib ki, 1983-cü ildə yaradılmış muzey 1993-cü ildə işğaldan sonra ermənilər tərəfindən dağıdılıb. Səyyahlar Ağdam şəhərində aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.

Qonaqlar Ağdam şəhərindən sonra Xankəndi şəhərinə yola düşüblər. Səyyahlar Qarabağ Universitetinə gəliblər. Onlar burada tədris prosesinin təşkili və tələbələr üçün yaradılan şəraitlə tanış olublar. Səyyahlar, həmçinin universitetin yeni kampuslarının inşa edildiyi tikinti meydançalarında olublar.

### Ağdamda genişmiqyaslı işlər görülür

Ağdamda səfərdə olan almaniyalı səyyah Oliver Kompkens Ağdamda fantastik işlərin görüldüyünü bildirib: "Burada davam edən bərpa-quruculuq işlərini görmək heyranedicidir".

Azərbaycana ikinci dəfə gəldiyini xatırladan səyyah ölkəmizə ilk dəfə 2017-ci ildə səfər etdiyini qeyd edib: "O vaxt mən Moskvada professor idim və konfransda çıxış etmək üçün Bakıya gəlmişdim. O zaman da mən Azərbaycana heyran olmuşdum. Xüsusən Azərbaycanı başqa postsovet ölkələri ilə müqayisə edəndə fərqli bir atmosferi və çox avropalaşmış, müasir ölkə və təhsilli bir xalqı görmək olur".

Oliver Kompkens azad edilmiş Ağdam şəhərininin dirçəldiyini, burada da yol və digər infrastruktur işlərinin icra edildiyini vurğulayıb: "Azərbaycan xalqını və hökumətini fantastik işə görə təbrik edirəm. Ağdam şəhəri tam bərpa ediləndən sonra növbəti illərdə də bura gəlməyə can atacağam".



Portuqaliyalı səyyah Jo Paulo Pihoto bildirib ki, Qarabağda bərpa işləri tam sürətlə davam edir və insanlar nəhayət sülh içində yaşayırlar. O, qeyd edib ki, 2021-ci ildəki səfəri zamanı bərpa işlərinin planlarını görüb: "İndi isə bütün planların həqiqətən həyata keçirildiyinin şahidi oldum. Dəyişikliklər heyranlıq doğurur".

### "Hər şeyin bu qədər tez həll olunacağını gözləmirdim"

Ağdamda səfərdə olan digər almaniyalı səyyah Karl Kuffner Ağdamda hər şeyin bu qədər tez həll olunacağını gözləmədiyini deyib: "Burada olduğuma görə çox şadam. Mən buraya 2021-ci ildə gəlmişdim. O vaxt burada hər şey məhv olmuş vəziyyətdə idi. Hələ o vaxt burada görüləcək işlərin planını müşahidə etmişdim. İndi görülmüş işlərə və digər tikinti işlərinə şahid olmaq, insanların sülh içində yaşadığını görmək çox xoşdur. 2021-ci ildə burada olanda hər şeyin bu cür tez həll ediləcəyini gözləmirdim. Yollar, körpülər - hər şey əladır. O vaxt biz burada minaları da görmüşdük. İndi minalar təmizlənib, bu həqiqətən əladır".

### İnsanlar sülh şəraitində yaşayırlar

Səyyah, həmçinin Azərbaycanın səyləri nəticəsində regionun tezliklə minalardan təmizlənəcəyinə əminliyini ifadə edib: "Ağdam demək olar ki, tamamilə minalardan təmizlənib. Bu həqiqətən təsirli bir işdir".

*Yeganə BAYRAMOVA*

*İdman*

## "Xankəndi" klubu 22 illik rekordu təkrarlayıb



Futbol üzrə Azərbaycan II Liqasının VI turu "Xankəndi"nin böyükhesablı qələbəsi ilə əlamətdar olub. Peşəkar Futbol Liqasının (PFL) məlumatına görə, "Araz-Saatlı"nın qonağı olan debütant 14:0 hesablı qələbə qazanıb. Bu, PFL-in bayrağı altında keçirilən yarışların tarixində ən böyük fərqli qalibiyyətdir. 2008-ci ildən Premyer Liqa, I Liqa, II Liqa, Əvəzedicilər liqası, ölkə kuboku və Superkubokunda 14 top fərqi ilə qalib gələn olmayıb. "Xankəndi"nin "Araz Saatlı" üzərində 14:0 hesablı qələbəsi, ümumilikdə, müstəqil Azərbaycanın peşəkar və yarımpeşəkar səviyyəli turnirləri üçün (II Liqanın ötən əsrdəki oyunları nəzərə alınmamaqla) ikinci ən böyük nəticənin təkrarıdır.

Yalnız bir dəfə ölkə çempionatı və kubokunda daha böyük fərqə təsadüf olunub. 1993/1994-cü illər mövsümündə I dəstədə mübarizə aparan komandaların duelində Sumqayıt təmsilçisi "Metallurq" "Göytəpə"ni 15:0 hesabı ilə məğlub edib.

14:0 hesabına isə 3-cü dəfə təsadüf olunub. Əvvəlki qələbələrin hər ikisinə "Şəfa" imza atıb və bu uğurlara ölkə kubokunda nail olub. 1997/1998-ci illər mövsümündə HHQ İK, 2003/2004-cü illər mövsümündə isə "Lider Qarabağ"la görüşdə "Şəfa" 14 cavabsız qol vurub. "Xankəndi" Saatlı təmsilçisi üzərində qələbə ilə "Şəfa"nın 22 il əvvəl imza atdığı XXI əsrin rekordunu təkrarlayıb.

## "Qarabağ"ın rəqibi avrokuboklar tarixində antirekorda imza atıb




UEFA Çempionlar Liqasının əsas mərhələsinin III turunda Niderlandın PSV klubuna 2:6 hesabı ilə uduzan İtaliyanın "Napoli" komandası antirekorda imza atıb. "Qarabağ"ın turnirdəki rəqibi avrokuboklar tarixində ilk dəfə qapısından 6 top buraxıb. A Seriyası təmsilçisi sonuncu dəfə 1997-ci ildə İtaliya çempionatında "Sampdoriya"ya 3:6 hesabı ilə məğlub olduğu matçda bu halla üzləşib.

Qeyd edək ki, "Qarabağ" "Napoli" ilə noyabrın 26-da İtaliyada qarşılaşacaq. Antonio Kontenin baş məşqçisi olduğu kollektiv hazırda 3 xalla turnir cədvəlində 22-ci sırada yer alıb. Ağdam klubu isə 6 xalla 10-cu pillədə qərarlaşıb.

## "Azercell"in dəstəklədiyi gənclərdən beynəlxalq səviyyədə növbəti uğur!




**Azərbaycan məktəbliləri "Stars of Informatics" yarışında 4 bürünc medal və mükafat qazanıblar**

Oktyabrın 18-19-da Rumıniyanın təşkilatçılığı ilə keçirilən "Stars of Informatics" beynəlxalq informatika müsabiqəsində ölkəmizi təmsil edən məktəblilər dörd bürünc medal və həvəsləndirici mükafat qazanıblar. 10 ölkədən 120 iştirakçının qatıldığı yarışda Türkiyə Dəyanət Vəqfi liseyinin 10-cu sinif şagirdləri Atilla Mustafa və Ömər Əliməmmədzadə, Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Fateh Əhmədzadə və Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Əkbər Əhmədov bürünc medala, həmin liseyin 10-cu sinif şagirdi Elay Verdiyev isə həvəsləndirici mükafata layiq görülüblər.

Virtual formatda təşkil edilmiş müsabiqə iki mərhələdən ibarət olub. Hər mərhələdə məktəblilər dörd saat ərzində üç tapşırıq həll edərək analitik düşüncə, alqoritmik problem həll etmə, proqramlaşdırma və vaxtın səmərəli idarə edilməsi kimi bacarıqlarını nümayiş etdiriblər2017-ci ildən etibarən "Azercell Telekom" MMC Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlıq çərçivəsində informatika olimpiadalarına hazırlıq prosesinə dəstək verir. Bu təşəbbüs nəticəsində gənclər müxtəlif yaş qrupları üzrə beynəlxalq proqramlaşdırma olimpiadalarında iştirak edərək ölkəmizə ümumilikdə 108 medal qazandırıblar.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2176
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova